# Azərbaycanlı alimə böyük etimad

## Professor Mahirə Hüseynova BZT Turan Akademiyasının Türk Dünyası Alim Qadınlar Şurasının sədri seçildi



3 May Türk Millətçiliyi Günü münasibətilə Bakı şəhərində əlamətdar bir toplantı keçirildi. BZT Turan Akademiyası tərəfindən təşkil edilən bu önəmli tədbir Türk dünyasının elmi, mədəni və pedaqoji əməkdaşlığını daha da gücləndirməyi hədəfləyirdi.



Toplantıya Özbəkistanın 15-ə qədər nüfuzlu universitetindən - STARS Beynəlxalq Universiteti, Jurnalistika və Kütləvi Kommunikasiya Universiteti, Milli Tədqiqatlar Universiteti "Daşkənd İrriqasiya və Aqrotexnika Avtomatlaşdırma İnstitutu", Özbəkistan-Finlandiya Pedaqogika Universiteti, Səmərqənd Dövlət Xarici Dillər Universiteti, Buxara Dövlət Universiteti, Əbu Əli İbni Sina adına Buxara Dövlət Tibb İnstitutu, İslam Kərimov adına Daşkənd Dövlət Texniki Universiteti, Daşkənd Tibb Akademiyası, Vebster Universiteti (Daşkənd), Turin Politexnik Universiteti Daşkənd Filialı, Kokand Pedaqoji Universiteti, Daşkənd Əczaçılıq Universiteti və Daşkənd Dövlət İqtisadiyyat Universiteti daxil olmaqla 40-dan çox nümayəndə heyəti qatıldı. Türkiyə Cümhuriyyətindən də çoxsaylı elm adamları iştirak edərək bu tədbirə xüsusi önəm qatdılar.

Toplantı zamanı Özbəkistan Elm və Təhsil Nazirliyinin Məmun Universiteti və Ürgənc Dövlət Pedaqoji Universiteti tərəfindən irəli sürülən namizədlər arasından Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova Türk Dünyası Alim Qadınlar Şurasının sədri seçildi.

Professor Mahirə Hüseynovanın illərdir Türk dünyasının elmi-mədəni əməkdaşlığı naminə göstərdiyi səylər bu yeni vəzifə ilə daha da ön plana çıxır.

Qeyd edək ki, 2019-cu ildən etibarən bir qrup gənc və təşəbbüskar akademik tərəfindən təsis edilən BZT Turan Akademiyası beynəlxalq konqreslər, simpoziumlar, təlimlər və elmi layihələr vasitəsilə bütün dünyadakı tədqiqatçıları bir araya gətirməyi əsas istiqamət olaraq müəyyən edib.

27 ölkədən 68-dən çox elmi qurumla tərəfdaşlıq edən Akademiya "Dildə, Fikirdə, Əməldə Birlik" ideyasını əsas hədəf kimi qəbul edərək Türk Dünyasının alimlərini ortaq tarix, dil və mədəniyyət dəyərləri ətrafında birləşdirməyə, elmi əməkdaşlığı gücləndirməyi qarşısına məqsəd qoyub. BZT Turan Akademiyası Türkiyə rəhbəri dr. Baha Ahmet Yılmaz, Azərbaycan rəhbəri dr. Niyaməddin Şükürov professor Hüseynova Mahirə Nağı qızına Türk Dünyası ziyalılarının inkişafına, əməkdaşlığına verdiyi töhfə üçün dərin minnətdarlıqlarını bildirərək dəyərli alimimizlə bir amal uğrunda bir yolda addımlamağı özlərinə şərəf bildiklərini söylədilər.